3. Mangold, T. Ahrefs vs. Serpstat: Which SEO Tool Is Better? 2021. URL: https://www.webfx.com/blog/seo/ahrefs-vs-serpstat/

4. Singh, P. SimilarWeb vs Ahrefs: Which SEO Tool is Better? Medium. 2021. URL: https://medium.com/@piyushrsingh/similarweb-vs-ahrefs-which-seo-tool-is-better-6323507d34e6

**UDC 378**

# TƏHSİLİN İDARƏ OLUNMASI: YENİLİKLƏR, SƏMƏRƏLİ NƏTİCƏLƏR

*Süleymanova Təranə Əhməd qızı*
*tarana.suleymanova73@mail.ru*
*Mingəçevir Dövlət Universiteti, müəllim, Azərbaycan*

Azərbaycan Respublikasının təhsil sahəsində dövlət siyasətinin əsasını təhsilin uzun müddətli dövr üçün əsas inkişaf istiqamətlərini müəyyən edən milli təhsil konsepsiyası və təhsil sisteminin bütün sahələrinin inkişafını nəzərdə tutan dövlət proqramları təşkil edir. Bu, milli-mənəvi və ümumbəşəri dəyərlərə dərindən yiyələnən, onları qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüs və yenilikləri qiymətləndirməyi bacaran, təhsil aldığı ixtisas üzrə nəzəri və praktik biliklərə tam yiyələnən, müasir təfəkkürlü mütəxəssis hazırlanmasını tələb edir. Təhsil sisteminin dövlət siyasətinin prinsipləri əsasında idarə edilməsi üçün bu sahədə çalışan hər bir şəxsin təhsil sahəsində bu siyasətin mahiyyətini, onun milli-mənəvi tələblərini bilməsi vacibdir.

Müasir dövrdə menecment, başqa sözlə fəaliyyətinin təşkili və idarə olunması müstəsna əhəmiyyət kəsb edən amillərdən biridir. Səmərəli idarəetmə isə planlaşdırma, təşkietmə, rəhbərlik və nəzarət funksiyalarının necə yerinə yetiriləsindən daha çox asılıdır.

Son dövrlərdə ölkəmizdə təhsilin idarə olunması sahəsində bir sıra əhəmiyyətli addımlar atılıb, nazirliyin mərkəzi aparatının idarəetmə potensialı xeyli gücləndirilib.

Dünya Bankının yaxından dəstəyi ilə həyata keçirilən layihələr çərçivəsində Strateji təhlil və planlaşdırma, monitorinq və qiymətləndirmə, təhsilin idarə olunmasının məlumat sistemlər, akkreditasiya şöbələri, təhsil sənəndlərinin tanınması, məktəbəqədər təhsil, əlavə sektorları yaradılıb. Bu yeni strukturların yaradılması müvafiq sahələrdə təhsil siyasəti və strategiyasının daha məqsədyönlü hazırlanmsı və çeviik həyata keçirilməsinə zəmin yaradıb.

Təhsil sistemində kadr siyasətinin formalaşdırılmasında iştirak etmək, kadrlara ehtiyacın müəyyənləşdirilməsi məqsədi ilə təhlillərin həyata keçirilməsi, təhsil sahəsində təhlillərin aparılması, əmək bazarının tələblərinə uyuğn olaraq tələbə qəbulunun planlaşdırılması üçün proqnozların hazırlnamsı məsələləri daxildir. Məlumdur ki, idarəetmənin səmərəli təşkili bir sıra şərtlərdən asılıdır, əsas şərt isə etibarlı məlumatların olmasıdır. Əvvəllər nazirlik belə məlumatlara malik deyildi, yaxud da əldə olunan məlumatlar subyektiv yoxlamalr əsasında formalaşmış mülahizələrə əsaslanırdı. [2]

Hazırda nazirliyin strukturu əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş, strateji təhlil və planlaşdırma, monitorinq, qiymətləndirmə, məlumat sistemləri, akkreditasiya,əlavə təhsil kimi vacib sahələrlə bağlı funksional strukturlar yaradılmışdır. Bu cür strukturların yaradılması təhsil sahəsində aparılan islahatların səmərəli və keyfiyyətli əsaslı təsir göstərməklə yanaşı, vahid siyasətinin işlənməsi və həyata keçirilməsinə öz töhvəsini vermişdir.

Pedaqoji işçilərin əlavə təhsil sistemində rəhbər pedaqoji kadrların yenidən hazırlanması və ixtisasının artırılması sistemi idarəetmənin keyfiyyətinin artırılmasında mühüm rol oynayır. [1]

İdarəetmənin əhatə etdiyi məsələlər çox və rəngarəngdir. Həmin məsələlərin həlli ilə əlaqədar vəzifələri yerinə yetirərkən idarəetmənin metodoloji və nəzəri əsası kimi, proqram mənbələrə, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasına, Təhsil Qanununa və həmin Qanuna müvafiq olaraq verilmiş təhsil qanunvericiliyi aktlarına, həmçinin təhsil müəssisələrinin Nizamnamələrinə istinad edir. Təhsilin idarə edilməsi eyni zamanda klassik və müasir pedaqoqların idarəetmə məsələlərinə dair nəzəri irsindən, pedaqogika elminin həmin sahədəki mülahizə və tövsiyələrindəki, başqa ölkələrin məktəbi idarəetmə və ona rəhbərlik sahəsindəki qabaqcıl təcrübəsindən yaradıcılıqla istifadə edir. Respublikamızda idarəetmə sahəsində köklü dəyişikliklər aparılır. Hazırda təhsil sözün həqiqi mənasında demokratikləşdirmə, milli zəmin və ümumbəşəri dəyərlər əsasında qurulur. İndi təhsilin inkişafına və idarə olunmasına ancaq dövlət deyil, həm də ictimaiyyət, ictimai idarəetmə orqanları da rəhbərlik edir.

Peşə təhsili müəssisələrinin idarə edilməsində rəhbər işçilər arasında iş bölgüsünün aparılması, ictimai təşkilatların idarəetməyə cəlbi vacibdir. İş bölgüsü zamanı idarə edənlərin peşəkarlığı, ixtisasları, işgüzarlığı nəzərə alınmalıdır. Valideyn komitəsinin yaradılmaması, uşaq birliklərinin və tərbiyə işləri üzrə direktor müavininin olmaması səlahiyyətlərin bölünməsində, idarəolunmada demokratik prinsiplərin həyata

keçirilməsində çətinliklər yaradır. Bir çox peşə təhsili müəssisəsi rəhbərlərinin təcrübəsiz olması, bu sahəni yaxşı bilməməsi də idarəolunmada səlahiyyətlərin bölüşdürülməsinin düzgün həyata keçirilməsində çətinliklər yaradır. Odur ki, səlahiyyətlər bölüşdürülərkən hər bir rəhbərin vəzifəsi ilə yanaşı onun baza təhsili də nəzərə alınmalıdır.

*Ədəbiyyat:*

1. R.Məmmədzadə, A.Abdullayev, F.Kərimova R.Cabbarov, S.Rəsulov, Ə.Quliyev. Təhsilin Idarə Edilməsinin Bəzi Problemləri. Bakı 2008
2. http://e-qanun.az/framework/47645

**УДК 796**

## ВОЛЛЕЙБОЛЧИЛАРНИ ЖИСМОНИЙ ТАРБИЯЛАШДА ИННОВАЦИОН ТЕХНОЛОГИЯЛАРДАН ФОЙДАЛАНИШ

*Табынбаев Б.А.*
*Ўзбекистон давлат жисмоний тарбия ва спорт университетининг Нукус филиали, Нукус шаҳри, Ўзбекистон*

Талаба-ёшларнинг соғлиғининг ҳолати миллат соғлом салоҳиятининг энг муҳим кўрсаткичларидан биридир, шунинг учун уни сақлаш ва ривожлантириш жамият учун устувор вазифадир. Талабалар саломатлиги муаммоси ва уни мустаҳкамлашга ёндашувлар кўплаб мутахассислар томонидан тадқиқот мавзуси бўлишига қарамай, етакчи олимлар томонидан олиб борилган кўплаб тадқиқотлар натижалари талабаларнинг олий таълим муассасасида ўқишнинг бутун даври давомида унинг ёмонлашувида жисмоний саломатлиги ва жисмоний тайёргарлигининг паст даражаси, шунингдек тенденцияларни кўрсатади. Муаллифларнинг аксарияти ўз тадқиқотларида таълим муассасаларида жисмоний тарбия жараёнини тубдан қайта қуриш, ёшларни мунтазам жисмоний фаолликка жалб қилишнинг замонавий ёндашувлари, талаба ёшларни ўқитиш тизимида жисмоний тарбия ва соғломлаштириш ишларини ташкил этишга инновацион ёндашувларни жорий этиш зарурлигига эътиборни қаратадилар. Жисмоний фаоллик даражасини пасайтириш, ўқувчиларнинг соғлиғининг ёмонлашуви муаммосини ҳал қилишнинг истиқболли усулларидан бири, олимлар ўқувчиларнинг жисмоний тарбия жараёнида қўлланиладиган воситалар таркибини яхшилаш деб ҳисоблашади.